# BİLİYİN QİYMƏTLƏNDİRİLMƏSİNİN 100 BALLIQ SİSTEMİ HAQQINDA BƏZİ MÜLAHİZƏLƏR

***İsaxan İSAXANLI***
*(Xəzər Universitəsi)*

Ali məktəbdə təhsil alan tələbələrin yüksəksəviyyəli kadr kimi yetişdirilməsi prosesinin əsas məqamlarından biri də təhsil aldıqları müddətdə onların biliyinin düzgün qiymətləndirilməsidir. Mərkəzləşdirilmiş Sovet təhsil sistemində tələbələrin biliyinin qiymətləndirilməsi standart beş ballıq sistem üzrə aparılırdı. O cümlədən Azərbaycanda da uzun illər qiymətləndirmənin bu sistemi tətbiq edilmişdir.

1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ölkəmizin təhsil sisteminin Avropa və dünyanın qabaqcıl ölkələrinin təhsil sisteminə inteqrasiya prosesi başlandı və bu, təhsil sistemimizə yeni, daha mütərəqqi elementlərin gətirilməsi zəruriliyini yaratdı. Təhsildə belə yeniliklərdən biri də 5 ballıq sistemlə yanaşı, qiymətləndirmənin 100 ballıq sisteminin tətbiq olunmağa başlanması oldu. Azərbaycanda qiymətləndirmənin bü sistemini tətbiq edən ilk ali məktəb Xəzər Universitəsidir. Xəzər Universitəsindən sonra bir sıra özəl ali məktəblər də qiymətləndirmənin bu sistemini bütövlükdə və ya qismən tətbiq etməyə başladılar. Artıq 15 ildən çox bir müddətdə özəl ali təhsildə bu sistem çox uğurla tətbiq olunsa da, dövlət ali məktəblərində yalnız 1999-2000-ci tədris ilindən etibarən tələbələrin biliyinin 100 ballıq sistem üzrə qiymətləndirilməsi istiqamətində müəyyən işlər görülməyə başlandı. Belə ki, uyğun əsasnamə təsdiq edildikdən sonra (10 avqust 1999-cu ildə), bir neçə dövlət ali məktəbində bu sistemin tətbiq olunmasına başlandı.

Təhsil Nazirliyi daim bu sistemin təkmilləşdirilməsi və ali məktəblərdə onun daha geniş müstəvidə tətbiq olunması istiqamətində işlər görür. Məhz bu məqsədlə Təhsil Nazirinin 15 may 2003-cü il, 420 saylı əmri ilə tələbələrin biliyinin qiymətləndirilməsinin 100 ballıq sistemi haqqında əsasnamə xeyli dəyişikliklərlə yeni redaksiyada təsdiq edildi. Bundan sonra 100 ballıq qiymətləndirmənin tətbiq dairəsi xeyli genişləndi. Bu gün bir sıra dövlət ali məktəbləri bütövlükdə qiymətləndirmənin 100 ballıq sisteminə keçsələr də bundan kənarda qalan ali məktəblər də var. Bu sistemin üstünlükləri kifayət qədər olsa da, görünür, bu ali təhsil ocaqlarımız, ilk növbədə, psixoloji olaraq bunu tam tətbiq etməyə hazır deyil.

Yuxarıda qeyd etdiyimiz kimi tələbələrin biliyinin 100 ballıq sistemlə qiymətləndirilməsi artıq uzun müddətdir ki, Xəzər Universitəsində uğurla tətbiq edilir. Azərbaycanda ilk özəl ali məktəb kimi fəaliyyətə başlayan Xəzər Universitəsinin təcrübəsi müstəvisindən baxaraq, bu sistemin və bununla bağlı Təhsil Nazirliyinin uyğun əsasnaməsinin bəzi məqamlarına toxunmaq istərdik.

1. Əsasnamədə göstərilir ki, ***tələbənin semestr (tədris ili) ərzində fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balların yarısı semestr (tədris ili) ərzindəki fəaliyyətə, digər yarısı isə imtahan nəticələrinə görə toplanır.***

Fikrimizcə, bu bölgünün əlli-əlliyə götürülməsi bir qədər düzgün deyil. Keçid balının 51 olduğunu nəzərə alsaq, imtahan üçün birbaşa 50 bal ayrılması bir qədər təhlükəli görünür. Aydındır ki, tələbə bütün semestr boyu fəal oxumaqla uğur qazana bilər və onun əldə etdiyi bilik daha dayanaqlı və uzunömürlü olar. Odur ki, bütün semestr boyu tələbəni fəal olmağa sövq edən komponentlərə (bunlar isə, əsasnamədə uyğun olaraq, 10, 10, 20, 10 balla qiymətləndirilən 4 komponentdir) xüsusi diqqət yetirilməlidir. Mövcud halda tələbə semestr boyu çalışmadan (cəmi 1-cə ballıq çalışmaq kifayətdir) imtahanda maksimum bal (50 bal) toplamaqla məqbul qiymət alır. Azərbaycanda imtahan vermə prosesinin özünəməxsus cəhətlərini də nəzərə alsaq, imtahanı uğurla verməkdə xüsusi çətinlik olmadığını görərik.

Əgər imtahana verilən qiymət bir qədər aşağı olsa, onda tələbə yalnız imtahanın nəticəsinə görə keçməyin mümkünsüzlüyünü görər və istər-istəməz semestr boyu az da olsa fəallıq göstərməklə bal ehtiyatını artırmağa çalışar ki, bu da son məqamda tələbənin biliyinə öz müsbət təsirini göstərər. Elə 100 ballıq qiymətləndirmə sisteminin əsas üstünlüklərindən biri də məhz tələbəni bütün semestr boyu fəal olmağa sövq etməkdir. Odur ki, bu bölgüdə imtahana ayrılan balın bir qədər azaldılması, fikrimizcə, məsələnin xeyrinə olar.

2. ***Akademik borcların ləğvi üçün tələbələrə 3 (üç) dəfə şərait yaradılır.***

Bu məsələ haqda xüsusi mülahizəyə ehtiyac var.

Ümumiyyətlə, hər hansı bir fənn üzrə imtahanda qeyri-kafi almış tələbəyə qısa müddət ərzində kəsirini ləğv etmək üçün imkan verilməsi (özü də 3 dəfə) kimə və nəyə lazımdır?

Məlumdur ki, tələbələr ildə iki dəfə semestr imtahanları (hər semestr müəyyən fənlər üzrə imtahan, bəzi fənlər üzrə isə məqbullar) verirlər. İl boyu verdikləri imtahanların hamısından məqbul qiymətlər toplayan tələbələr növbəti kursa keçir. Hər hansı imtahandan qeyri-kafi qiymət alan tələbə üç dəfə təkrar imtahan vermək hüququna malikdir. Bu imkanlardan da istifadə edə bilməyənlər kursda qalır və həmin il oxuduqları fənləri (hətta imtahanlarda məqbul qiymət aldıqları?!) yenidən oxumalı olurlar. Qeyd etmək lazımdır ki, belə hallara (təkrar kursda qalma hadisələrinə) çox az-az rast gəlmək olur. Səbəb isə aydındır. Hər hansı imtahandan kəsilmiş tələbənin qısa müddət ərzində 2-3 dəfə təkrar imtahan vermək imkanı var. (Elə bu imkanların yaradılması kəsilmiş tələbəyə, nəyin bahasına olursa-olsun qiymət yazılmasına xidmət etmirmi?!).

Təbii ki, iki il dalbadal kursda qalan tələbənin ali məktəbdən xaric olunması təhlükəsi (birinci kurs tələbələri isə kəsirini ləğv edə bilmirsə kursda qalmır, birbaşa ali məktəbdən xaric edilir) kəsiri vaxtında ləğv etməni gücləndirən amillərdəndir. Artıq kəsilmiş tələbə, necə olursa olsun, kəsirini ləğv etmək məcburiyyətində qalır və bunun üçün, lazım gələrsə, müxtəlif üsullara da (tapşırıq, xahiş, ruşvət və s.) əl atmalı olur və nəhayət, kəsirini ləğv edir. Beləliklə, 4 il başa çatdıqdan sonra məzunluq diplomu alan tələbələr arasında məzunluq diplomuna layiq olmayan, mütəxəssis kimi çalışmağa tamamilə hazır olmayan çoxsaylı məzunlara da rast gəlinir.

Beləliklə tələbələr kəsirlərini asanlıqla ləğv edir, kursdan-kursa keçir və məzunluq təntənəsinə gəlib çatırlar.

Uzun illər formalaşan bu sistemin dərin kökləri var. Sovetlər Birliyinin iqtisadi tənəzzülə uğramasınının səbəblərindən biri də respublikalar arasında sosializm yarışı olmuşdur. Nəyin bahasına olursa-olsun yarışın qalibi olmaq üçün hər cür üsullara əl atılması xəstəliyi təhsildən də yan keçmirdi. Belə ki, ali məktəblərin fəaliyyətini qiymətləndirərkən yetirmə faizi uğurun əsas meyarı kimi götürülürdü. Bu ənənə müəyyən mənada indi də davam etməkdədir. Tələbənin bilik səviyyəsi yox, yetirmə faizinin yüksək rəqəmlə ifadə olunması yenə də yaxşı fəaliyyətin göstəricisidir. Son 10-15 ildə dövlət buraxılış imtahanlarının da formal keçirilməsi təhsildə keyfiyyətin yüksəldilməsi prosesinin təkmilləşdirilməsini zəruri edir.

Digər sadə bir məntiq: əgər tələbə semestr ərzində hər hansı bir fəndən kəsilmişdirsə, bu o deməkdir ki, həmin tələbə, imtahana zəif hazırlaşmış və ya heç hazırlaşmamış, sərbəst işləmə fəaliyyəti zəif olmuş, kurs işini zəif yerinə yetirmiş, seminar və ya laboratoriya dərslərində qeyri-fəal olmuşdur. (100 ballıq sistemə daxil olan məqamlar sadalanır). Deməli, həmin tələbə, faktiki olaraq, semestr boyu çox zəif tələbə olmuşdur. Beləliklə, semestr boyu oxumayan, çalışmayan tələbəyə qısa müddətdə 3 dəfə kəsirini ləğv etmək üçün imkan verilməsi, doğrudan da həmin tələbənin süni yolla məzun olmasına xidmət etmirmi? Bu hallar isə son məqamda ölkəmizdə diplomlu işsizlər ordusunun yaranmasına gətirib çıxarır.

3. **Tələbənin imtahandan topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semestr ərzində fəaliyyət nəticəsində topladığı bala əlavə olunmur**.

Bəs niyə məhz 17? Yəqin ki, bu rəqəm sadəcə olaraq, keçid balının (yəni 51-in) üçdə-biri olaraq götürülüb.

Ümumiyyətlə, 17 rəqəminin hansı məntiqlə götürülməsindən asılı olmayaraq imtahan üçün bu əlavə şərtin qoyulmasına ehtiyac varmı?

<u>Birincisi,</u> əgər tələbənin toplaya biləcəyi 100 balın 50 balı imtahan üçün, qalan 50 balı isə yerdə qalan 4 komponent üçün ayrılmışdırsa, bu artıq

imtahanın rolunun əsas olduğunu göstərir. Odur ki, əlavə bunu vurğulamağa ehtiyac yoxdur.

İkincisi, dərslərdə yüksək davamiyyət göstərmiş, seminar və ya laboratoriya dərslərində lazımi qədər fəal olmuş, kurs işlərini vaxtında və yüksək səviyyədə müdafiə etmiş bir tələbənin (bununla da tələbə artıq 50 bal yığmış olur) imtahanda 17 yox, 16 alması prinsipial olaraq nəyisə dəyişirmi? Qətiyyətlə deyirik ki, yox!

Burada bir şeyi də xüsusi qeyd etmək istərdik. Böyük uğurları və ənənələri ilə haqlı fəxr etdiyimiz Sovetlər dönəmində semestr boyu yuxarıda sadaladığımız elementləri yüksək səviyyədə verən tələbələrdən, demək olar ki, imtahan götürülmürdü və həmin tələbələrə mexaniki olaraq əla qiymət yazılırdı.

Beləliklə, "tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır" şərtini prinsipial hesab etmirik.

4. **Tələbənin orta balı müəyyənləşdirilir**.

Sözsüz ki, orta bal tələbənin təqaüd almasına, məzun olarkən adi, yoxsa fərqlənmə diplomu almasına təsir edir.

Fikrimizcə, bütün bunlarla yanaşı, "orta bal"ın dəyərinin və ümumiyyətlə təhsilin keyfiyyətinə onun birbaşa təsirinin artırılması xeyri müsbət nəticələrə gətirib çıxarar.

Məsələn, Xəzər Universitetində belə bir təcrübə tətbiq edilir. Tələbənin məzun olması üçün tədris proqramını tam yerinə yetirməsi kifayət deyil. Onun həm ümumi orta qiyməti, həm də ixtisas fənləri üzrə orta qiyməti 70-dən az olmamalıdır.

Təhsil Nazirliyinin qəbul etdiyi qaydalara əsasən tədris planına daxil olan bütün imtahanlardan 51 alan (keçid balı 51-dir) tələbə məzun olur. Xəzər Universitetində isə keçid balı 60 olsa da, bütün imtahanlardan nəinki 60, heç 69 alan tələbə də məzun ola bilmir. Onun orta balı, yuxarıda qeyd edildiyi kimi, 70-dən az olmamalıdır. Bu isə tələbəni daha yüksək balla oxumağa sövq edən vacib şərtlərdən biridir.

Göstərilən bütün bu məqamların nəzərə alınması, fikrimizcə, tələbələrin biliyinin daha düzgün qiymətləndirilməsi və təhsilin keyfiyyətinin yüksəldilməsi prosesinə müsbət təsir göstərər.

## ƏDƏBİYYAT


1. ***Tələbələrin biliyinin qiymətləndirilməsinin çoxballı sistemi haqqında əsasnamə.*** Azərbaycan Respublikası Təhsil Nazirinin 15.05.2003-cü il tarixli, 420 saylı əmri ilə təsdiq edilmişdir.
2. İsaxan İsaxanlı. ***"Azərbaycan ali təhsilində süzgəc prosesi".*** Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, ali məktəblərarası tematik məcmuə, 4-cü buraxılış,

Azərbaycan Respublikası Təhsil Nazirliyi və M.F.Axundov adına rus Dili və Ədəbiyyatı Institutu. Bakı, 1998

## Summary

## SOME SUGGESTIONS ON 100-POINT GRADING SCALE EVALUATION OF STUDENT'S KNOWLEDGE

***İsakhan İSAKHANLI***
*(Khazar University)*

An article analyses charter on 100-point grading scale evaluation of student's knowledge, gives suggestions from the experience of different private high education institutions and states the importance of paying attention to several peculiarities of this system.